# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Onkoloji xəstələrin dərman vasitələri ilə təminatı Qaydası"nın təsdiq edilməsi haqqında" 2006-cı il 20 dekabr tarixli 266 nömrəli, "Dövlət məktəbəqədər təhsil müəssisəsini maliyyələşdirmə normativləri"nin təsdiq edilməsi barədə" 2018-ci il 12 yanvar tarixli 12 nömrəli, "Dövlət ümumi təhsil müəssisəsini maliyyələşdirmə Normativləri"nin təsdiq edilməsi barədə" 2020-ci il 7 fevral tarixli 33 nömrəli qərarlarında dəyişiklik edilməsi və "Tibbi sığorta müqaviləsinin forması və bağlanma Qaydasının təsdiq edilməsi haqqında" 2001-ci il 6 mart tarixli 58 nömrəli, "Tibb təchizatçısının və ya tibbi ərazi bölməsinin icbari tibbi sığorta çərçivəsində göstərdiyi tibbi xidmətlərlə bağlı hesabatların təqdim edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 11 iyun tarixli 264 nömrəli qərarlarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli 1718-VQD nömrəli Qanununun tətbiqi və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və "Tibbi

sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 24 dekabr tarixli 898 nömrəli Fərmanının 2.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 20 dekabr tarixli 266 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1155) ilə təsdiq edilmiş “Onkoloji xəstələrin dərman vasitələri ilə təminatı Qaydası”nın 9-cu hissəsində “vətəndaşın yaşadığı ərazi üzrə müvafiq səhiyyə orqanının büdcə vəsaiti” sözləri “dövlət büdcəsinin vəsaitləri” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 128) ilə təsdiq edilmiş “Dövlət məktəbəqədər təhsil müəssisəsini maliyyələşdirmə normativləri”nin 2.1.2-ci yarımbəndinin ikinci abzasının birinci cümləsində “İcbari tibbi” sözləri “Tibbi” sözü ilə əvəz edilsin və həmin cümlədən “(bu sığorta növü tətbiq edilən ərazilərdə)” sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 fevral tarixli 33 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 184) ilə təsdiq edilmiş “Dövlət ümumi təhsil müəssisəsini maliyyələşdirmə Normativləri”nin 2.1.2-ci yarımbəndinin ikinci abzasının birinci cümləsindən “(bu sığorta növü tətbiq edilən ərazilərdə)” sözləri çıxarılsın.

4. “Tibbi sığorta müqaviləsinin forması və bağlanma Qaydasının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 6 mart tarixli 58 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 213; 2008, № 2, maddə 108, № 6, maddə 581; 2015, № 7, maddə 874; 2016, № 6, maddə 1219, № 10, maddə 1717) ləğv edilsin.

5. “Tibb təchizatçısının və ya tibbi ərazi bölməsinin icbari tibbi sığorta çərçivəsində göstərdiyi tibbi xidmətlərlə bağlı hesabatların təqdim edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 iyun tarixli 264 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1153) ləğv edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 8 sentyabr 2020-ci il

№ 329